# İbtidai siniflərdə şagirdlərin rabitəli nitqinin inkişaf etdirilməsi yolları

**Səadət Qəhrəman qızı Qurbanova**
*Bakı Qızlar Universiteti*
**E-mail:** seadet.qurbanova.2017@mail.ru

**Rəyçilər:** filol.ü.f.d., T.R. İsmayılova,
p.ü.f.d., dos. P.M. Həsənova

**Açar sözlər:** rabitəli nitq, şagird, ibtidai sinif, kurikulum, inşa, esse, ifadə
**Ключевые слова:** родственная речь, ученик, начальная школа, учебная программа, сочинение, эссе, выражение
**Key words:** related speech, student, elementary school, curriculum, essay, expression

İnsan mədəniyyətinin ayrılmaz hissəsi olan nitq mədəniyyəti dil normalarının məcmusu kimi təzahür edir. Hər bir insan elə danışmalı, nitqini elə qurmalıdır ki, dinləyicilər onu nəinki başa düşməli, həm də onun danışığına həvəslə qulaq asmalıdırlar. Nitq mədəniyyətinə yiyələnmək üçün dilin lüğət tərkibinə dərindən bələdlik, onun fonetik, leksik-semantik, frazeoloji və qrammatik normalarına yiyələnmək, dil qanunlarını nitqdə düzgün tətbiq edə bilmək zəruridir. Söz ehtiyatı zəngin olan, sözlərin məna çalarlarını nitqində düzgün əlaqələndirməyi bacaran, geniş erudisiyalı insan öz fikrini çətinlik çəkmədən məntiqi cəhətdən ifadə etmək qabiliyyətində olur. A.Abdullayev və S.Abdullayevanın da qeyd etdikləri kimi, "...nitq ən mühüm ünsiyyət vasitəsi olmaqla dilin yazılı və şifahi təzahür formasını özündə əks etdirir" (2, s.265).

A.A. Lyublinskaya yazır: "İnsan öz ünsiyyət təcrübəsində adətən doğma dilinin zənginliyini təşkil edən lüğətin və müxtəlif qrammatik quruluşun yalnız kiçik bir hissəsindən istifadə edir. Bununla yanaşı nitq dildən zəngindir. Belə ki, insan hər hansı şey haqqında danışmaqla ona və müsahibinə öz münasibətini bildirir. Onun nitqi intonasiya ifadəliliyinə malikdir. Adam işlətdiyi sözün mənasından çox şey deyə bilir. Lakin adamın öz fikrini kifayət qədər dəqiq və incəliklə ifadə edə bilməsi üçün öz ana dilinə mükəmməl yiyələnməsi vacibdir" (7, s.183).

Uşaqlarda nitqin inkişafı bir neçə mərhələdə baş verir. "Nitq ontogenezi" psixolinqistik konsepsiyasında A.A. Leontiyev XIX-XX əsrlərin görkəmli dilçi və psixoloqlarının metodoloji yanaşmalarını, xüsusilə də, V. Humboldtun aşağıdakı fikirlərini təməl konseptual müddəalardan biri kimi qeyd edir: "Uşaqların öyrənməsi sözlərin uyğunlaşması, yaddaşlarda yığılması və nitq vasitəsilə canlandırılması deyil, yaş qabiliyyəti və məşq ilə dil qabiliyyətinin inkişafıdır" (8, s. 271).

Görkəmli rus pedaqoqu Y.İ. Tixeyeva yazır ki, "Uşaqlar ailə tərbiyəsində erkən yaşlardan etibarən düzgün nitq vərdişləri almalıdırlar. Uşaqların düzgün nitq inkişafında yaşlıların, xüsusilə anaların nümunəsi çox böyük rol oynayır. Valideynlər və ailə üzvləri uşaqların eşitmə qabiliyyətinin inkişaf etdirilməsinə qaygı göstərməli, uşaqla düzgün danışmalıdırlar" (10, s. 61).

Tədqiqatçı N. Ramizzadə haqlı olaraq qeyd edir ki, "İbtidai siniflərdə Azərbaycan dili təliminin qarşısında duran ümumi və konkret didaktik vəzifələr şagirdlərin dünyagörüşünün və təfəkkürünün inkişafına və ən başlıcası nitq bacarıqlarının və nitq mədəniyyətinin inkişafına xidmət edir (9, s. 77). Müasir Azərbaycan ədəbi dil normalarının (fonetik, orfoqrafik, orfo-

epik, leksik-semantik, qrammatik, üslubi ibtidai siniflərdə təcrübi, praktik yolla mənimsənilməsi zəruri olmaqla, gələcəkdə şagirdlərin kamil nitqə yiyələnməsini təmin edir. Kamil nitqi xarakterizə edən əsas amillər: nitqin aydınlığı, obrazlılığı, yığcamlığı, təmizliyi, düzgünlüyü, zənginliyi, sadəliyi, münasibliyi, rabitəliliyi, ifadəliliyi, dəqiqliyi, məntiqliliyi, konkretliyi, səlisliyi və ahəngdarlığı, səmimiliyinə dair bacarıqların özülü ibtidai siniflərdə qoyulur.

G. Abdullayeva yazır ki, "Rabitəli nitq üzərində işə şagirdin məktəbə gəldiyi ilk gündən başlanılmalıdır. Əlifba təlimi dövründə ayrı-ayrı söz, cümlə və mətnlərin məzmunu ilə əlaqədar olaraq şəkillər əsasında cümlələr qurur, danışır, mətnin məzmununa əlavələr edirlər. Suallara cavab üzrə iş şagirdləri müstəqil yazılara, rabitəli nitqin əsas növləri olan ifadə və inşa (esse) yazmağa hazırlayır" (3, s.144).

Dərs zamanı 5-10 dəqiqəyə həyata keçirilən bu öyrədici yazılar şagirdlərin qazandıqları biliklərin möhkəmləndirilməsində, rabitəli nitqlərinin inkişafında, orfoqrafik və durğu işarələrinin işlənməsinə aid vərdişlərinin sabitləşməsində mühüm rol oynayır.

Rabitəli nitqin birinci mərhələsini ifadə, ikinci mərhələsini isə inşa yazılar təşkil edir. İfadə və inşalar şagirdlərin müstəqilliyini və fəallığını artıran mürəkkəb çalışma və iş formalarıdır. Hər iki iş forması cümlələri, fikirləri ümumi məzmun və ümumi ideya ətrafında birləşdirib rabitəli mətn qurmağı tələb etməklə, təfəkkürün və nitqin inkişafında mühüm rol oynayır. Təcrübə göstərir ki, aparılmasına xüsusi saat ayrılmayan 5-10 dəqiqəlik kiçik həcmli ifadələrdən təlim prosesində istifadə olunmasa da, yığcam inşaların icrasına daha çox üstünlük verilir. Bu cür inşaların mövzuları isə ən çox gündəlik həyatla əlaqələndirilir. Bütün tarixi günlər, bayramlar, yubileylər, gündəlik həyatda və respublikada baş verən mühüm hadisələr bu inşaların mövzusuna çevrilir. Təsviri və təsviri-mühakimə xarakterli inşaların yazdırılması şagirdləri mühakimə xarakterli inşalar yazmağa hazırlayır. Mövzular çox rəngarəng ola bilər: "İlk dərs", "Mənim bir günüm", "Yay tətilini necə keçirdim", "Qızıl payız", "İlk qar", "Yeni il", "Qurban bayramı", "Doğma kəndimiz", "Yaşadığım küçə", "20 Yanvar", "Xocalı faciəsi", "Bahar fəsli", "Mən dərslərə necə hazırlaşıram?", "Valideynlərimə necə kömək edirəm?", "Üzüm bağlarında ", "Bizim məktəb", "Məktəb kitabxanasında" və s.

İbtidai siniflərdə on ildən artıq bir müddətdə tətbiq olunan yeni məzmun – "Kurikulum" (1) təlimində də şagirdlərin rabitəli nitqinin inkişafı işində ifadə və inşalarla yanaşı, esse təliminə də geniş yer verilir. Belə ki, Azərbaycan dili dərslərində müntəzəm və plana uyğun şəkildə esse yazılar tətbiq olunur. İnşa və ya esse bir-birinə yaxın yazı fəaliyyətləridir. Bununla belə, inşa ilə müqayisədə essenin mövzusu daha konkret olur və burada çox zaman motivasiya xarakterli situasiya verilir. V. Qurbanov yazır ki, "bəzi linqvistlərə görə, esselər inşanın xüsusi bir növüdür. Bununla belə, yeni metodik və didaktik düşüncədə inşa və esse ayrı-ayrı kateqoriyalar kimi qiymətləndirilir" (6, s. 55).

Esselər II-IV siniflərdə həm oxu materiallarının, həm də dil qaydaları ilə əlaqəli mövzuların tədrisi prosesində qruplarla tədqiqatın aparılması, yaradıcı işlərin tətbiqi, refleksiya mərhələlərində 3-5 dəqiqə ərzində yazılır. Esselər şagirdlərin yaradıcılıq qabiliyyətinin, təfəkkürünün, nitqinin inkişafına güclü təsir göstərir. İbtidai siniflərdə şagirdlərə aşağıdakı mövzularda esse yazdırmaq məqsədəuyğun olar: "Mən xoşbəxtliyi nədə görürəm?", "Mənim ailəm", "Dostuma məktub" (II sinif), "Yaxşılıq etmək nə deməkdir?", "Mənim məktəbim", "Mədəni danışmaq gözəllikdir" (III sinif), "Mənim dostum", "Milli qəhrəman kimdir?", "Novruz bayramı necə keçirilir?", "Mənim kəndim", "Sevdiyim peşə" (IV sinif) və s. Ümumiyyətlə, şagirdlərin özünümüdafiə bacarığını yoxlamaq üçün esse daha münasib iş növüdür. Həyatın bütün sahələri ilə bağlı olan belə mövzular şagirdlərin nitqini və təfəkkürünü inkişaf etdirir, onları öz fikirlərini rabitəli ifadə etməyə hazırlayır. Y. Kərimov qeyd edir ki, "...lüğət və cümlə

üzərində aparılacaq iş rabitəli nitqin inkişaf etdirilməsi üçün həm hazırlıq mərhələsi, həm də onun mühüm şərtlərindən biridir. Şagird fikrini ardıcıl, məntiqi ifadə edərkən, bu və ya digər sözü yerində işlətməzsə, yaxud cümlələri düzgün qurmazsa, onun nitqi rabitəli ola bilməz" (3, s. 82).

Beləliklə, ibtidai siniflərdə oxu, ifadə, inşa (esse), əməli yazılar təlimi prosesində rabitəli nitqin inkişafına əlverişli imkan yaranır. Rəy inşalar, esse təlimi, hekayə qurmaq, nəzmi nəsrə çevirmək vərdişlərinin formalaşdırılması sahəsində aparılan işlər şagirdlərin rabitəli nitqinin inkişafına təminat verir. Rabitəli nitq şagirdin müstəqilliyini, yaradıcılıq meylini də inkişaf etdirməlidir.

N. Abdullayevin də göstərdiyi kimi, "yaxşı nitqin məziyyətlərindən biri onun rabitəli olmasıdır. Bu o deməkdir ki, mövzudakı fikirlər müəyyən ardıcıllıqla şərh olunmalı, onların arasında məntiqi bağlılıq gözlənilməlidir. İkinci fikir birinci, üçüncü ikinci, dördüncü üçüncüdən doğmalı, onu davam etdirməli, tamamlamalı, genişləndirməli və dəqiqləşdirməlidir" (4, s. 247).

İbtidai siniflərdə, əsasən, inşanın aşağıdakı növlərindən istifadə edilməlidir:

1.Təsvir xarakterli inşalar; 2.Mühakimə xarakterli inşalar; 3.Hekayə (təhkiyə) xarakterli inşalar; 4. Məqalə xarakterli inşalar və s.

İfadə yazıların isə cəmi iki növündən (geniş və yığcam) istifadə olunur.

Müəllim şagirdlərin yazdıqları ilk inşalardan biri və ya ikisinin kollektiv müzakirəsini təşkil edərək, məzmunun necə əhatə olunduğunu, artıq cümlələrin lazımsız yerə işlədildiyini, eləcə də, əksinə, bəzi cümlələri işlətməyin zəruriliyini əyani şəkildə şagirdlərə çatdıra bilər. İnşanın və ifadənin mövzusu, məzmunun mövzuya uyğun gəlib-gəlməməsi, mövzunun əhatə olunub-olunmaması üzərindəki bu cür iş bütün il boyu, sistematik şəkildə davam etdirilməli, nöqsanlar müntəzəm olaraq islah edilməlidir.

İbtidai sinifdə şagirdlərə divar qəzeti üçün məlumat xarakterli inşalar (məqalə) yazmaq da öyrədilir. Bu məqsəd üçün əvvəlcə şagirdlərə nəzərdə tutulmuş mətbuat orqanlarından müəyyən məqalələri oxumaq, müzakirə etmək, onun əsas əlamətlərini çatdırmaq müsbət nəticə verə bilər. Uşaqlar başa düşürlər ki, belə yazıların əsas cəhəti bir hadisə haqqında sadəcə məlumatın verilməsindən ibarətdir. Nəticədə şagirdlərin hər biri sinifdə, məktəbdə, küçədə, ailədə və s. müşahidə etdikləri maraqlı bir hadisəni məqalənin mövzusuna çevirə bilirlər.

İbtidai sinif şagirdləri üçün ən zəruri və çətin inşa növlərindən biri də mühakimə xarakterli inşadır. Belə inşalar üç hissədən ibarət olur:

1) irəli sürülən əsas fikir (tezis); 2) bu fikrin, yəni tezisin əsaslandırılması (sübut); 3) nəticə.

Adətən, inşa – mühakimələrdə şagirdlər bir neçə nöqsanlara yol verirlər. Məsələn, tezisdə fikirlərini düzgün ifadə edə bilmirlər. Tezisi sübut etmək üçün lazımi faktları düzgün seçə bilmirlər. Tezis, sübut və nəticə arasında əlaqəni yarada bilmirlər və s.

Şəxsi müşahidə əsasında aparılan inşalar, bir növ, hekayə janrına uyğun gəlir. Belə ki, şagird özünün şahidi olduğu, gördüyü və yaxud eşitdiyi bir hadisəni təhkiyə yolu ilə ifadə edir. İnşanın bu növü üç əsas hissədən ibarət olur:

1) hadisənin baş verməsi; 2) hadisənin inkişaf edərək ən gərgin vəziyyətə çatması; 3) hadisənin nə ilə nəticələnməsi. Göründüyü kimi, bu ardıcıllıq ədəbiyyatşünaslıqda işlədilən anlayışlara uyğun gəlir.

İbtidai siniflərdə nitq inkişafı üzrə aparılan işlərin nəticəsi şagirdlərin öz fikirlərini rabitəli şəkildə necə ifadə etmələri ilə müəyyənləşdirilir. Bunun üçün isə danışan ilk növbədə veriləcək informasiyanı yaxşı mənimsəməlidir ki, onu dil cəhətdən doğru, rabitəli şəkildə ifadə edə

bilsin. Deməli, nitq məzmunun özünə müvafiq forma ilə ifadə edilməsindən ibarətdir. Rabitəli nitqin inkişafı dedikdə, birinci növbədə, şagirdin öz fikrini səlis, aydın, ardıcıl, yığcam və təsirli şəkildə ifadə etməsi nəzərdə tutulur.

**Məqalənin aktuallığı.** Nitq inkişafında müəllim və şagirdlərin qarşılıqlı, uzun və gərgin əməyi tələb olunur. Bu prosesdə uğursuzluqlarla qarşılaşmaq da qaçınılmazdır. Əsas görülən işin nəticə verəcəyinə ümid bəsləməkdir. Şagirdlər gördükləri və eşitdikləri, eləcə də həyat təcrübələri haqqında danışarkən, yaxud yazarkən, sözləri yerli yerində dəqiq işlətməyi və cümlələri qrammatik cəhətdən düzgün qurmağı bacarmalıdırlar. Məqalə də məhz belə vacib mövzuya həsr olunduğundan onu aktual hesab edə bilərik

**Məqalənin elmi yeniliyi.** Elmi yenilik ondan ibarətdir ki, məqalədə ibtidai siniflərdə rabitəli nitqin inkişafının nəzəri və praktik problemləri tədqiqata cəlb edilmiş və geniş izahla şərh olunmuşdur. Həmçinin, ibtidai siniflərdə rabitəli nitqin mahiyyəti, əhəmiyyəti, məqsədi və vəzifələri açıqlanmış, problemin pedaqoji, psixoloji və linqvistik aspekti araşdırılmış, kurikulum tələbləri baxımından yeni yanaşmalar öz əksini tapmışdır.

**Məqalənin praktik əhəmiyyəti və tətbiqi.** Məqalədən orta ixtisas və orta ümumtəhsil məktəblərinin müəllimləri, tələbə və magistrantlar istifadə edə bilərlər.

## Ədəbiyyat

1. Azərbaycan Respublikası ümumtəhsil məktəbləri üçün (I-IV siniflər) Ana dili kurikulumu. Bakı, 2007.

2. Abdullayev A., Abdullayev S. İbtidai təhsilin pedaqogikası. Bakı: Elm və təhsil, 2016.

3. Abdullayeva G. İbtidai siniflərdə şagirdlərin rabitəli nitqinin inkişaf etdirilməsi. Elmi iş. Humanitar elmlər üzrə aylıq beynəlxalq elmi jurnal, 2019, № 4

4. Abdullayev N. Nitq mədəniyyətinin əsasları. Bakı, 2013.

5. Kərimov Y. Ş. İbtidai siniflərdə yazılı inşalar. Bakı, 1998.

6. Qurbanov V.T. Nitq mədəniyyəti və üslubiyyatın əsasları. Bakı, 2018.

7. Люблинская А.А. Детская психология. Беседы с воспитателем о развитии ребёнка. М., 1962.

8. Леонтьев Л.Л. Психология общения. М., 1997.

9. Ramizzadə N. Nitq fəaliyyəti zəminində tədrisdə dinləmə mətnləri mühüm komponent kimi // Azərbaycan məktəbi, Bakı, 2017, № ?.

10. Тихеева Е. И. Развитие речи детей. М., 2019.

**С.Г. Курбанова**

## Способы развития коммуникативной речи учащихся в начальной школе

## Резюме

Работа над лексикой и предложениями является одним из важных условий развития связной речи. Важно помнить, что когда ученик излагает свои мысли связным, логичным способом, если он не использует то или иное слово или если он неправильно строит предложения, его речь не будет связной.

В статье исследуются теоретические и практические проблемы развития коммуни-

кативной речи в начальной школе и подробно их разъясняются. Также были разъяснены сущность, значение, цели и задачи коммуникативной речи в начальной школе, изучены педагогические, психологические и лингвистические аспекты проблемы, а также отражены новые подходы с точки зрения требований учебных программ.

**S.Q. Qurbanova**

## Ways to develop students' communicative speech in primary school

## Summary

Working on vocabulary and sentences is one of the important conditions for the development of coherent speech. It is important to remember that when a student expresses his thoughts in a coherent, logical way, if he does not use this or that word or if he constructs sentences incorrectly, his speech will not be coherent.

The article explores the theoretical and practical problems of the development of communicative speech in primary school and explains them in detail. Also, the essence, importance, goals and objectives of communicative speech in primary school were explained, the pedagogical, psychological and linguistic aspects of the problem were studied, and new approaches in terms of curriculum requirements were reflected.

**Redaksiyaya daxil olub:** 04.11.2020